# Qismət yoxsa Zəhmətsevərlik

Əminəm ki, çoxlarınız gündəlik həyatınızda belə sözlər eşidirsiniz… filankəsin bəxti gətirdi, filankəsdə alınmadı, qismətdir və s. Biz hesab edirik ki, həyatda baş verən bütün proseslər zərurətdən doğur və biz insanlar öz talemizin yazarıyıq. Bəxt amili, əlbəttə ki, həyatda var və çox lazımlıdır. Amma və LAKİN bu hamıda olur, hamının həyatında ən azı bir dəfə bəxti gəririr, kimlərsə bundan istifadə edir, kimlərsə… bunu itirir. Bu bloqda video şəklində sözü gedən məsələlər bağlı fikirlərimi paylaşmaq istəyirəm.

İlk öncə deyim ki, biz bloqlarımızda heç bir şəkildə dini mövzular barədə müzakirələr etmirik, buna bizim nə savadımız çat(ır)ar və həvəsimiz var. Qurban olduğumuzun dedikləri əlbəttə ki, hər bir müsəlmanları olduğu kimidə bizim üçün şərtdir. Həmçinin biz hesab edirik ki, dini inanclar barədə məlumatlar yaymaq səhvdir.

Keçək bloqumuza, deyildiyi kimi, vacib deyil sən harda yaşayırsan, nə edirsən və s. zəhmətsevər insanın qarşısında heç bir şəkildə durmaq mümkün deyil. Bir yaxın dostum var… hər zaman deyir ki, başında məmur duran, pulu havadan gələn bizneslərlə rəqabət etməyə nə var?! Onsuzda işləyə bilmirlər, sadəcə daha çox qazanmağa imkan yaradırlar. Əgər sən işinin həqiqətəndə üstündəsənsə və s.

Hərəkət etmək və sistemli olmaq lazımdır. Qalanları özü özlüyündə düzələcək. Hətta bəxtinizdə gərirəcək… qıraqdan baxanlarda deyəcək ki… "eşi adamı var" və ya "eşi məndə edə bilərdim amma…" və mütləq deyəcəklər: "filankəsin şansı (bəxti) gətirdi" qoy onlar danışsınlar. Siz (biz) işləyək!)

ƏLAVƏ OXUMAQ ÜÇÜN:

- Missiya, Vizyon barədə
- Biznes qurmağın düşmənləri
- Dəyişmək biznesdə şərtdir